## Maddə 24

Sizin mümkün olan ən yüksək keyfiyyətli səhiyyə xidmətləri, içməli su, faydalı qida, təmiz və təhlükəsiz mühit və bununla bağlı zəruri məlumatları almaq hüququnuz var.

## Maddə 25

Evdən uzaqda və ya uşaq qayğı müəssisəsində olduğunuz halda, dövlət sizin şəraitinizi daim yoxlamalıdır.



## Maddə 26

Maddi durumunuz aşağıdırsa, sizin dövlətdən yardım almaq hüququnuz var.



## Maddə 27

Sizin qida və geyim ilə təmin olunmaq, təhlükəsiz yerdə yaşamaq və ən əsas ehtiyaclarınızın ödənilməsi hüququnuz var. Siz də digər uşaqların edə biləcəklərini edə bilmək imkanına malik olmalısınız.

## Maddə 28

Sizin yüksək keyfiyyətli təhsil almaq hüququnuz var.



## Maddə 29

Təhsiliniz sizə öz istedad və bacarıqlarınızı inkişaf etdirməyə şərait yaratmalıdır.

## Maddə 30

Sizin özünüzün və ya seçdiyiniz adət-ənənə, dil və ya dinlə yaşamaq hüququnuz var.

## Maddə 31

Sizin oynamaq və dincəlmək hüququnuz var.

## Maddə 32

Sizə zərər verən, sağlamlığınız və təhsiliniz üçün zərərli olan işdən qorunmaq hüququnuz var.

## Maddə 33

Sizin narkotiklərdən və narkotik vasitə alverindən qorunmaq hüququnuz var.



## Maddə 34

Sizin cinsi sui-istifadədən qorunmaq hüququnuz var.



## Maddə 35

Heç kim sizi oğurlaya və ya sata bilməz.

## Maddə 36

Sizin istismarın (sizdən istifadə edilmənin) istənilən növündən qorunmaq hüququnuz var.

## Maddə 37

Heç kim sizi qəddarcasına cəzalandıra bilməz.

## Maddə 38

Sizin müharibədən qorunmaq və azad olmaq hüququnuz var. 15 yaşınadək uşaqlar hərbi xidmətə və ya müharibəyə çağırıla bilməz.

## Maddə 39

Haqsız və ya kobud münasibətə məruz qaldığınızda sizin yardım almaq hüququnuz var.



## Maddə 40

Sizin hüquqlarınıza hörmət edən ədliyyə sistemində hüquqi yardımdan və sizə qarşı ədalətli davranışdan yararlanmaq hüququnuz var.

## Maddə 41

Yaşadığınız ölkənin qanunvericiliyi sizin hüquqlarınızı bu konvensiyadan daha yaxşı qoruyursa, həmin qanunvericilik daha üstün hesab edilir.



## Maddə 42

Hüquqlarınızı bilməyə haqqınız var!



## Maddə 43-54

Bu maddələrdə dövlətlərin və UNICEF kimi beynəlxalq təşkilatların uşaq hüquqlarının qorunduğunu təmin etmək üçün necə çalışdıqları izah edilir.




Uşaqların hüquqlarının pozulması ilə bağlı

**Ombudsmana müraciət et!**

ÇAĞRI MƏRKƏZİ 916


**Əlaqə vasitələri:**

Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, Hökumət evi, II Ala qapı

www.ombudsman.az

ombudsmanazerbaijan

Tel/Faks: (+99412) 493 74 22, (+99412) 498 23 65

ombudsman@ombudsman.az / apparat@ombudsman.az


# BMT-NİN UŞAQ HÜQUQLARI KONVENSİYASI

uşaqlar üçün anlaşılan dildə


Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

unicef
hər bir uşaq üçün



“Hüquqlar” dedikdə hər bir uşağın malik olmalı olduğu və ya edə bilmək bacarığında olduğu şeylər nəzərdə tutulur. Bütün uşaqlar eyni hüquqlara malikdir. Bütün bu hüquqlar BMT-nin Uşaq Hüquqları Konvensiyasında sadalanmışdır və siz böyüdükcə bu hüquqlarınıza görə daha çox məsuliyyət daşıyacaqsız.

## Maddə 1

18 yaşına çatmamış hər bir insan bu hüquqlara malikdir.





## Maddə 2

Hər bir uşaq kimliyindən, harada yaşamasından, valideynlərinin nə işlə məşğul olmasından, hansı dildə danışmasından, dinindən, qız və ya oğlan olmasından, mədəniyyətindən, əlilliyinin olub-olmamasından, yoxsul və ya zəngin olmasından asılı olmayaraq bu hüquqlara malikdir.



## Maddə 3

Böyüklər gələcəyinizi düşünərək sizin üçün ən xeyirli olanı etməlidir.



## Maddə 4

Dövlət bu Konvensiyada nəzərdə tutulmuş hüquqlarınızın həyata keçirilməsi üçün bütün mümkün tədbirləri görməlidir.

## Maddə 5

Ailəniz hüquqlarınızı tanımaq, onlardan yararlanmaq və qorumağı öyrənməyiniz üçün sizə kömək göstərməlidir.



## Maddə 6

Sizin yaşamaq və inkişaf etmək hüququnuz var.



## Maddə 7

Sizin ad almaq hüququnuz var və bu hüququnuz dövlət tərəfindən rəsmi olaraq tanınmalıdır. Sizin vətəndaşlıq almaq hüququnuz var (ölkəyə mənsub olmaq hüququ).

## Maddə 8

Dövlət ad, vətəndaşlıq və ailə əlaqələri də daxil olmaqla sizin fərdiliyinizi qorumalıdır.



## Maddə 9

Valideynləriniz (valideyniniz) sizi incitmirsə, onlarla (onunla) yaşamaq hüququnuz var.



## Maddə 10

Valideynləriniz fərqli ölkədə yaşayırsa, həmin ölkədə onlarla birlikdə olmaq hüququnuz var.



## Maddə 11

Adam oğurluğundan qorunmaq hüququnuz var.



## Maddə 12

Sizə aid məsələlərdə fikirlərinizi azad şəkildə ifadə etmək hüququnuz var.



## Maddə 13

Digər insanlara zərər verməməklə sizin danışmaq, şəkil çəkmək, yazmaq və digər üsullarla düşündüyünüzü digərləri ilə bölüşmək hüququnuz var.

## Maddə 14

Sizin öz dininizi və inancınızı seçmək hüququnuz var. Valideynləriniz sizə nəyin düzgün və ya yanlış olduğunu bilməyiniz və ən yaxşı qərarı verməyiniz üçün yardım etməlidir.

## Maddə 15

Başqalarına zərər vermədiyi təqdirdə, sizin öz dostlarınızı seçmək, qruplara qoşulmaq və ya qrup yaratmaq hüququnuz var.

## Maddə 16

Sizin şəxsi toxunulmazlıq hüququnuz var.

## Maddə 17

Sizin gələcəyiniz üçün vacib, amma zərərsiz olan məlumatları əldə etmək hüququnuz var.



## Maddə 18

Sizin valideynləriniz tərəfindən tərbiyə olunmaq hüququnuz var.



## Maddə 19

Sizin zorakılıqdan müdafiə hüququnuz var.

## Maddə 20

Valideynləriniz ilə yaşamadığınız halda sizin xüsusi qayğıdan yararlanmaq və yardım almaq hüququnuz var.

## Maddə 21

Övladlığa götürülmüsünüzsə, qayğı və müdafiə hüququnuz var.



## Maddə 22

Qaçqınsınızsa, sizin xüsusi müdafiə və yardım almaq hüququnuz var.



## Maddə 23

Əlilliyiniz varsa, həyatınızı dolğun yaşamağınız üçün xüsusi təhsil və qayğı almaq hüququna, eləcə də bu Konvensiyada əks etdirilmiş bütün hüquqlara sahibsiniz.